


# Azərbaycan modeli inklüziv cəmiyyət üçün ən mükəmməl örnəkdir

Aprelin 25-dən 27-dək Bakıda Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalar Alyansının VII Qlobal Bakı Forumu keçirildi. “İnklüziv cəmiyyətlərdə birgə yaşama: çağırış və məqsəd” devizi altında keçirilən forumda BMT-yə üzv ölkələrin dövlət və hökumət başçıları, siyasi liderlər, tərəfdaş qurumlar, beynəlxalq və regional təşkilatların nümayəndələri, özəl sektor, incəsənət, media və akademiyaların təmsilçiləri, donor təşkilatlar və fondlar daxil olmaqla ümumilikdə 1500 nəfərdən çox qonaq iştirak etdi.

## Sivilizasiyalar və mədəniyyətlərarası dialoq məkanı

Sivilizasiyalar, dinlər və mədəniyyətlərarası, eləcə də humanitar mövzulu forumların keçirilməsi üçün Azərbaycanın seçilməsi təsadüfi deyil. Çünki qədim və zəngin mədəniyyətə malik, müxtəlif ənənələrin, sivilizasiya və konfessiyaların əsrlər boyu dinc yanaşı yaşadığı Azərbaycan bu formatda tədbirlərin keçirilməsi üçün, həqiqətən də, nümunəvi məkandır. Ölkəmiz tarix boyu sivilizasiyaların və mədəniyyətlərin qovuşuğunda yerləşib, Asiya ilə Avropa arasında körpü olması burada mədəniyyət müxtəlifliyinin yaranmasında mühüm rol oynayıb. Azərbaycan çoxmillətli, qonaqpərvər bir diyardır. Burada tarixən birgə yaşayan xalqlar, toplumlar özlərini azad, firavan hiss ediblər, çünki onlar özlərinə həmişə tolerant münasibət görüb, sıxılmayıb və mədəniyyətlərini saxlayıblar. Bu gün ölkəmizdə başqa xalqların nümayəndələri öz ana dillərində təhsil ala bilir, dini inanclarına uyğun ibadət edir, heç bir ögey münasibətlə üzləşmədən müxtəlif sahələrin inkişafına öz töhfələrini verirlər.

Bu kimi amillər Azərbaycanın sivilizasiyalararası və mədəniyyətlərarası dialoqa mühüm töhfə verən ölkə statusunu daha da möhkəmləndirir və bu mövzuda dünyanı düşündürən məsələlərin müzakirə edildiyi beynəlxalq tədbirlərin məhz ölkəmizdə keçirilməsini şərtləndirir. Beləliklə, Azərbaycan artıq uzun illərdir ki, qlobal və regional səviyyəli tədbirlərə evsahibliyi edən, dünyanın diqqətini çəkən mühüm məsələlərin müzakirə olunduğu siyasi və humanitar mərkəz kimi tanınmağa başlamışdır. Təsadüfi deyil ki, Bakı Beynəlxalq Humanitar Forumu, Mədəniyyətlərarası Dialoq Forumu, Dini Liderlərin Zirvə toplantısı, Qlobal Bakı Forumu və digər tədbirlər məhz Azərbaycanda keçirilir.

Forumun rəsmi açılış mərasimində çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev bununla bağlı deyib: *“BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumuna Bakının evsahibliyi etməsi təsadüfi deyil. Çünki tolerantlığın məkanı, multikultural dəyərlərə sadiq olan müstəqil Azərbaycan mədəniyyətlərin dialoqunun inkişafına, mədəni müxtəlifliyin qorunub saxlanmasına və sivilizasiyalar arasındakı qarşılıqlı münasibətlərin tənzimlənməsinə yönələn mühüm layihələrin reallaşdırılması, mötəbər forumların keçirilməsi sahəsində zəngin təcrübəyə malikdir”.*

## Azərbaycana göstərilən ali etimad

BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun Bakıda keçirilməsi isə Azərbaycanın beynəlxalq tədbirlər mərkəzi kimi statusunu daha da möhkəmləndirir. Xatırladaq ki, forumun 2016-cı ildə Bakıda keçirilməsi barədə qərar 2014-cü il sentyabrın 26-da Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının 69-cu sessiyası çərçivəsində qəbul edilib. Prezident İlham Əliyev 2015-ci il iyulun 24-də forumun ölkəmizdə keçirilməsi ilə bağlı Təşkilat Komitəsinin yaradılması barədə sərəncam imzalayıb. 2015-ci il oktyabrın 1-də BMT Baş Assambleyası çərçivəsində keçirilmiş BMT Sivilizasiyalar Alyansının Nazirlər Şurasının iclasında BMT-nin Baş katibi və digər yüksək səviyyəli rəsmilərin iştirakı ilə forumun və ölkəmizin təqdimatı keçirilib. 2015-ci il oktyabrın 24-də isə London şəhərində BMT Sivilizasiyalar Alyansı üzrə ali nümayəndəsi Nasir Əbdüləziz Əl-Nasir ilə görüş keçirilib və görüş çərçivəsində “Azərbaycan Respublikası hökuməti ilə Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalar Alyansı arasında VII Qlobal Forumun 2016-cı il 25-27 aprel tarixində Bakı şəhərində keçirilməsinə dair Saziş” imzalanıb. Saziş Azərbaycan Respublikası Prezidentinin 24 dekabr 2015-ci il tarixli sərəncamı ilə təsdiq edilib.

BMT Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun Bakı şəhərində keçirilməsi barədə qərar qəbul edilməsi dünyanın ən nüfuzlu ali qurumunun, dünya ölkələrinin Azərbaycana olan hörmətinin, etimadının, ölkəmizin dünya siyasətində, beynəlxalq münasibətlər sistemində yerinə və roluna, habelə multikultural dəyərlərin təşviqi və sivilizasiyalararası, mədəniyyətlərarası dialoqun inkişafına töhfələrinə verilən qiymətin real ifadəsidir. Bu mühüm tədbirə ölkəmizin evsahibliyi etməsi onu göstərir ki, Azərbaycanın mədəniyyətlərin dialoqunun inkişafı, mədəni müxtəlifliyin qorunub saxlanılması, sivilizasiyalar arasındakı qarşılıqlı münasibətlərin tənzimlənməsi və mötəbər forumların gerçəkləşdirilməsi sahəsində zəngin təcrübəsi dünyada qəbul olunur. Qeyd etdiyimiz kimi, BMT-nin Sivilizasiyalar Alyansının Qlobal Forumu XXI əsrdə bəşəriyyətin qarşısında duran qlobal çağırışlara cavab axtarmaq, sivilizasiyalararası əməkdaşlıqla bağlı ən mühüm məsələlərə dair geniş spektrli dialoqlar, fikir mübadilələri və müzakirələr aparmaq üçün beynəlxalq miqyasda nüfuzlu elmi-siyasi platformadır. Bakı Forumunda isə inklüziv cəmiyyətlərin qurulmasında gənclərin rolu, bu sahədə özəl sektorun rolu, multikulturalizm və tolerantlıq məsələləri, ekstremizmə və terrora qarşı mübarizə, qlobal miqrasiya və digər məsələlər müzakirə edildi.

## İnklüziv cəmiyyətlərin qurulmasında gənclərin iştirakı mütləqdir

Gənclik daim inkişafın aparıcı qüvvəsi kimi çıxış edir. Digər tərəfdən, inklüziv cəmiyyətlər olmadan qarşıya qoyulan mütərəqqi məqsədlərə, bəşəri dəyərlərin reallaşmasına nail olunması mümkünsüzdür. Bu mənada inklüziv cəmiyyətlərin qurulmasında və inkişaf etdirilməsində gənclərin xüsusi rolunu nəzərə alaraq, forum çərçivəsində ilk olaraq aprelin 25-də Gənclər Forumu işə başladı. Forumda BMT Sivilizasiyalar Alyansı tərəfindən aparılan beynəlxalq müsabiqə nəticəsində beynəlxalq təşkilatların nümayəndələri, xarici və yerli gənclər təşkilatlarının rəhbərləri olan 6 min nəfər arasından seçilmiş 150 gənc iştirak etdi. Onlar qarşıda duran məqsədlərə nail olunması, gənclərin beynəlxalq əməkdaşlığının gücləndirilməsi, yaşadığımız planeti daha yaxşı məkana çevirmək imkanları və s. məsələləri müzakirə etdilər.

Gənclər Forumunun açılışında Heydər Əliyev Fondunun vitse-prezidenti, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) xoşməramlı səfiri Leyla Əliyeva bu tədbirin qarşılıqlı anlaşmanın və əməkdaşlığın beynəlxalq miqyasda təşviqində mühüm rol oynayacağına əminliyini bildirib: “Əminəm ki, Bakı Forumu bizim bütün dünyada anlaşma və əməkdaşlığın təbliği ilə bağlı birgə səylərimizə öz töhfəsini verəcək. Azərbaycan Şərq ilə Qərbin kəsişməsində, Şərq müdrikliyi ilə Qərb tərəqqisinin qarşılaşdığı məkanda yerləşən qədim ənənələrə və zəngin tarixə malik diyardır. Qədim zamanlarda Azərbaycan tarixi İpək Yolunun üzərində əsas mərkəz olub. Bu, Azərbaycanı tolerantlıq, yeni ideyalar və dialoqa inanan ölkəyə çevirərək mədəniyyətimizə inanılmaz dərəcədə təsir edib”.

BMT-nin Sivilizasiyalar Alyansının həyata keçirdiyi müxtəlif proqramlar çərçivəsində gənclər müxtəlif düşüncələrin, habelə dünyanın fərqli bölgələrinin mədəniyyətlərinin öyrənilməsi baxımından mühüm imkanlar əldə edirlər. Gənclərin təşəbbüsləri dəstəklənməsə, onların fəaliyyəti üçün əlverişli şərait yaradılmasa, inklüziv cəmiyyət formalaşdırmaq mümkün deyil. Məhz bu baxımdan belə forumlar, tədbirlər vacibdir. Bu mənada dünyanın müxtəlif ölkələrindən gənclərin Bakıda toplaşması qarşıda duran problemlərin həlli baxımından mühüm əhəmiyyət kəsb etdi. Çünki Gənclər Forumunda və müxtəlif toplantılarda səslənən fikirlər həm gələcək nəsillərin tərəqqisi, həm də beynəlxalq ictimai meyarlar baxımından olduqca faydalıdır. Digər tərəfdən, müxtəlif millətlərin nümayəndələri, xüsusilə gənclər bir-birləri ilə yaxından əlaqə qurmalı və digər mədəniyyətlərlə tanış olmalıdırlar. Bu cür mötəbər tədbirlərdə isə onlar informasiya, sosial media, vizual media kimi sahələrdəki fəaliyyətlərini paylaşaraq yeni əlaqələr qurmaq imkanı qazanırlar.

## Etnik və dini birgəyaşayışın Azərbaycan nümunəsi

İnklüziv cəmiyyətin əsas göstəricilərindən biri etnik və dini müxtəlifliyin harmoniyasıdır. Ona görə Bakı Forumunun əsas müzakirə mövzularından biri də multikulturalizm və tolerantlıq məsələləri oldu. Azərbaycan tarix boyu multietnik mədəni və dini müxtəlifliyə malik olub. Bu gün isə multikulturalizm və tolerantlıq Azərbaycanda dövlət siyasətinin mühüm prioritetlərindən birini təşkil edir. Bu cür bəşəri və humanizm ideyalarına sadiqlik cəmiyyətimizin əsas keyfiyyət üstünlüklərindən biridir. Prezident İlham Əliyev multikultural cəmiyyət modelini yeni dəyərlərlə zənginləşdirir. Eyni zamanda, Heydər Əliyev Fondu tolerantlıq və multikulturalizm ənənələrinin davam etdirilməsində çox böyük işlər görür. Fond bu istiqamətdə uğurlu layihələr həyata keçirir, multikulturalizmi ölkəmizin sərhədlərindən kənarda təbliğ edir. “Tolerantlığın ünvanı - Azərbaycan” layihəsi çərçivəsində Heydər Əliyev Fondu katolik, pravoslav kilsələrinin və sinaqoqların təmirinə töhfə verir. Müsəlman ölkəsi olan Azərbaycan tərəfindən Vatikanın tarixində ilk dəfə Romada müqəddəs Marçelino və Pyotr katakombaları bərpa edilib. Fransanın müxtəlif regionlarında bir neçə qədim kilsə bərpa olunub.

Aprelin 27-də BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumu çərçivəsində “Sosial inteqrasiya sahəsində qabaqcıl metodlar” mövzusunda keçirilən ikinci plenar iclasında bütün bunların ölkəmizin tolerant dəyərlərə bağlılığından irəli gəldiyini qeyd edən Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyeva deyib: *“Çoxmillətli, çoxkonfessiyalı ölkə olan Azərbaycanda müxtəlif dinlərin və etnik qrupların nümayəndələri bərabərhüquqlu vətəndaşlardır. Mütərəqqi dünyada demokratiyanın vacib sütunu kimi qəbul edilmiş dini və etnik tolerantlıq Azərbaycan cəmiyyətində normaya çevrilib. Qürur hissi ilə bəyan etmək istəyirəm ki, tarixən bizdə milli və dini zəmində ayrı-seçkilik və düşmənçilik halları heç vaxt baş qaldırmayıb. İnsanlarımızın əksəriyyətinin müsəlman olmasına baxmayaraq, ölkəmizdə xristian, yəhudi və digər dinlər də təmsil olunub”.*

Bu məsələlər forum çərçivəsində “Dini rəhbərlər və zorakı ekstremizm: qabaqlayıcı tədbirlərlə bağlı çətinliklər” mövzusunda keçirilən bölmə iclasında da müzakirə edilib. Əsas məqsəd isə ekstremizmin qarşısının alınması üçün atılacaq addımların müəyyən edilməsi idi. Qeyd edilib ki, dini icmalar öz səylərini birləşdirərək dini ekstremizmlə mübarizə aparmalı, sülh ideyasını daha geniş yaymalı, hər bir dini icma öz xüsusiyyətini saxlamalı və yaxşı cəhətlərini digərləri ilə bölüşməlidir.

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə bildirib ki, tarixən çoxmillətli və çoxkonfessiyalı bir ölkə, milli, dini tolerantlıq və multikultural ənənələr diyarı olan Azərbaycanda sülh məramının və qarşılıqlı ehtiram məfkurəsinin bəşəriyyətə bəyan edilməsi üçün dövlət tərəfindən hər cür şərait yaradılıb. Azərbaycanın müxtəlif sivilizasiyalar arasında tarixən oynadığı mənəvi körpü rolunu bu gün də layiqli şəkildə davam etdirdiyini deyən Şeyxülislam Allahşükür Paşazadə müasir dövrdə milli və dini zəmində baş verən münaqişələrə qarşı ənənəvi dinlərin sülh, ədalət, mənəvi-əxlaqi prinsipləri ilə yanaşı, Azərbaycanın uğurlu birgəyaşayış modelindən istifadə edilməsinin məqsədəmüvafiq olduğunu bildirib.

## Əməkdaşlıq özəl sektorda möhkəmlənir

İnklüziv cəmiyyətlərin formalaşmasında həm hökumətlərin, həm də özəl sektorun üzərinə vəzifə düşür. Çünki özəl sektorun öz funksiyasını əhatəli yerinə yetirə bilməsi üçün əlverişli biznes və investisiya mühiti yaradılmalıdır. Sahibkarlığın inkişafı üçün müxtəlif təşviq tədbirləri tətbiq edilməlidir. Hər iki tərəfin daşıdığı məsuliyyət bu istiqamətdə fəaliyyətlərin əlaqələndirilməsini və səylərin birləşdirilməsini zəruri edir.

Ölkəmizdə də cəmiyyətin inklüzivliyini təmin etmək üçün müxtəlif iqtisadi və sosialyönümlü layihələr icra edilir. Buna misal olaraq regionların inkişafı, yoxsulluq səviyyəsinin azaldılması, yeni iş yerlərinin açılması istiqamətində həyata keçirilən proqram və layihələri misal göstərmək olar. Azərbaycan hökuməti bu istiqamətdə özəl sektorun fəaliyyətini daim stimullaşdırır. Bu baxımdan Azərbaycanda biznes mühitinin yaxşılaşdırılması, şəffaf inzibati tənzimləmə və dəstək mexanizmlərinin tətbiqi, layihələrin birgə maliyyələşdirilməsi və digər sahələrdə uğurlu təcrübə mövcuddur. Belə ki, son 10 il ərzində ölkəmizdə təqribən 1,5 milyon iş yeri açılıb, işsizliyin səviyyəsi 5 faizə, yoxsulluğun səviyyəsi isə təxminən 8 dəfə azalaraq 4,9 faizə enib. Forumda keçirilən biznes simpoziumunda iqtisadiyyat naziri Şahin Mustafayevin qeyd etdiyi kimi, biz məmnuniyyətlə bu təcrübəmizi bölüşməyə hazırıq.

Onu da qeyd edək ki, bu gün vətəndaş cəmiyyəti ilə biznes arasında möhkəm əlaqələrin yaradılması zərurəti müşahidə edilir. Onların əməkdaşlığı artıq çox aktualdır. Vətəndaşların müxtəlif qruplarının maraqlarını dəstəkləyən qeyri-hökumət təşkilatları məqsədlərinə çatmaq üçün biznes nümayəndələri ilə daha sıx əməkdaşlığa ehtiyac duyurlar. Sahibkarlar da bu əlaqələrin inkişafında maraqlıdırlar, çünki müasir reallıq biznesdən sosial məsuliyyət tələb edir. Bu baxımdan BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumu qurumun fəaliyyət sahəsinin genişlənməsinə, vətəndaş cəmiyyəti və özəl sektor arasında əlaqələrin inkişafına töhfə verəcək.

BMT-nin Sivilizasiyalar Alyansı inklüziv cəmiyyətdə birgəyaşayışa nail olunmasını məqsəd kimi qarşıya qoyub. Bakı Forumu isə yaxşı təcrübəni öyrənmək üçün mühüm imkan idi. Çünki inklüziv cəmiyyətin formalaşması və birgəyaşama mövzuları ətrafında aktual məsələ və problemlərin müzakirə olunduğu foruma iştirak etmək üçün Azərbaycana gələn hər kəs ölkəmizdə etnik və dini birgəyaşayışın real nümunəsini, inklüziv cəmiyyətin formalaşması istiqamətində atılan addımların real nəticəsini gördü. Təsadüfi deyil ki, VII Qlobal Forumun yüksək səviyyəli nazirlər iclasının Bakı Bəyannaməsində müxtəlif fərqli baxışların bir araya gətirilməsi, “Bakı prosesi” və 2016-cı ilin ölkəmizdə “Multikulturalizm ili” elan edilməsi baxımından Azərbaycanın rolu təqdir edildi.

**Rəşad CƏFƏRLİ,**
**“Azərbaycan”**